# SENTYABR 2018

**SOCAR Polymer MMC-nin xəbərlər bülleteni / Nömrə 9 / 2018-ci il**

**Bu buraxılışda:**





Azərbaycan-Rusiya əlaqələri möhkəmlənir s.7





İdarəetmə məntəqəsi zavodlarımızın düşünən beynidir s.8





"Tecnimont" şirkəti 16 mln adam-saat nailiyyətini qeyd etdi s.10




592
işçi

İş vaxtının itkisi olmadan
17.954.550
adam/saat işlənmişdir

98.4%
YSPE zavodu – sentyabr ayına ümumi irəliləyiş

SOCAR POLYMER

# Sabah kim olacağın buğun nə etdiyinlə başlar




Hörmətli həmkarlar!

Məlumdur ki, sənayenin inkişafı və uğur əldə etməsi təkcə ən müasir texnologiyalara deyil, həm də mütərəqqi və bacarıqlı insan resurslarına əsaslanır. Bacarıqlı kadrlar inkişafın nəbzini tutaraq daha iri miqyaslı nəticələrə və sabit inkişafa nail olmağa imkan yaradırlar. Bunu nəzərə alaraq, "SOCAR Polymer" şirkəti hər il keçirdiyi Yay Təcrübə Proqramına istedadlı və həvəsli tələbələri, o cümlədən kimya sənayesi ilə bağlı ixtisas sahələrində yaxşı oxuyan və atdıqları ilkin praktiki addımları ilə gələcəkdə güclü mütəxəssis olacaqlarını vəd edən gəncləri cəlb edir.
Ölkəmizin kimya sənayesində yeni mütəxəssislərə olan artan tələbatı nəzərə alaraq, "SOCAR Polymer" təcrübə proqramları təşkil edir və, bundan əlavə, gəncləri yarım-ştat və tam ştat işlə təmin edir. Bu da gənclərə dinamik karyera üçün möhkəm bünövrə yaratmaqda kömək edir.
Artıq üç ardıcıl ildir ki, şirkətimiz yuxarı kurs tələbələri və yeni məzunlar üçün öz qapılarını açmışdır. Söz var deyirlər: "Təcrübə əldə etmək üçün təcrübən olmalıdır".
Əmək bazarına daxil olmaq üçün praktiki iş təcrübəsinin olması çox böyük əhəmiyyət kəsb edir. Bugünkü əmək bazarında işverənlər əsas etibarı ilə istər təcrübə proqramı, istər könüllü fəaliyyəti, istərsə də digər praktika nəticəsində əldə edilmiş iş təcrübəsi təsvir edilən tərcümeyi-hallara etibar edir və üstünlük verir. Tələbəlik həyatından işçi qüvvəsi kateqoriyasına keçən gənclər üçün bu böyük bir məsələdir. Praktiki iş təcrübəsi qazanmaq və müvafiq tərcümeyi-hal tərtib etmək üçün gözəl fürsət verən təcrübə proqramları gənclərin gələcəkdə özlərinə olan inam və etibarlarını möhkəmləndirmək üçün əsas amildir. Ödənişli və ya pulsuz, kreditli və ya kreditsiz olmağı təcrübə proqramlarının dəyərini dəyişmir – təcrübə proqramları sizin gələcəyinizə yatırılan sərmayədir.
Hər il olduğu kimi bu Yay Təcrübə Proqramının sonunda da təcrübəçilər proqram müddəti ərzində öyrəndiklərinə dair elektron təqdimatlarla çıxış edir və "SOCAR Polymer"də əldə etdikləri faydalardan və özlərinin şirkətə verdikləri töhfələrdən danışırlar. Təcrübəçilərin özlərini inkişaf etdirmək uğrunda göstərdikləri əzmkarlıq, habelə "SOCAR Polymer"in dəstəyi və rəhbərliyi sayəsində formalaşdırdıqları özünə məxsus tərəqqi anlayışının ifadə edilməsi çox xoş təəssürat bağışladı. Həmin təqdimatlar həm də gənc nəslin qiymətləndirilməsi üçün yaxşı bir imkan idi, axı onlar sənayenin gələcək inkişaf potensialının əsasını təşkil edir.
Gənclərə gələcək həyat yollarında böyük uğurlar arzu edirik!



**Fərid Cəfərov**



Sentyabr 2018

# Tikinti sahəsindən görüntülər



# Sentyabr ayında sahədə müşahidə olunan irəliləyiş

## YSPE zavodu



YSPE zavodu: Qarışdırıcı siloslar.
Boru sistemlərinin izolyasiya işləri davam etmişdir



YSPE zavodu: Ekstruziya qurğusu.
Boru sistemlərinin izolyasiya işləri başa çatmışdır. Qapıların quraşdırılması demək olar ki, başa çatmışdır.



YSPE zavodu: Orqanoleptik qurğu/Tullantı sularının təmizlənməsi qurğusu. Boru sistemlərinin quraşdırılması davam etmişdir



YSPE zavodu: Polimerləşdirmə qurğusu.
Kabel tavalarının qapaqlarının quraşdırılması və boru sistemlərinin izolyasiya işləri davam etmişdir.




YSPE zavodu: Elektrik yarımstansiyası.
Kabellərin çəkilməsi və kabel ucluqlarının /klemmaların taxılması başa çatmışdır



YSPE zavodu: qranula üfürücü aqreqatın logistika sahəsi.
Boru sistemlərinin izolyasiya işləri davam etmişdir



YSPE zavodu: Reaktorun boşaltma rezervuarı.
Elektrotexniki işlər davam etmişdir



YSPE zavodu: Aşağı təzyiqli əridicilərin rekuperasiyası.
Boru sistemlərinin izolyasiyası və rəngsazlıq işləri davam etmişdir



YSPE zavodu: Torbalama və qablaşdırma.
Klapan və flans qutularının hazırlanması, quraşdırılması və izolyasiyası başlamışdır



YSPE zavodu: Etilenin təmizlənməsi.
Boru sistemlərinin izolyasiyası və rəngsazlıq işləri davam etmişdir

# Layihənin icra vəziyyəti

## YSPE Zavodu üzrə irəliləyiş

### Layihənin bölmələri üzrə ümumi irəliləyiş

İşçi layihəsinin hazırlanması

**100%**

MTT/Satınalma

**100%**

Podrat işləri

**100%**

Material təchizatı – hazırlama və çatdırılma

**100%**

Tikinti işləri

**98.8%**

Ümumi irəliləyiş faizi

**98.4%**

# Azərbaycan-Rusiya əlaqələri möhkəmlənir

4 sentyabr 2018-ci tarixində “SOCAR Polymer” və “SOCAR RUS” Məhdud məsuliyyətli cəmiyyətlərin Baş Direktoru Fərid Cəfərov RealTV Azərbaycan teleradio şirkətinin rəhbəri Mirşahin Ağayevə müsahibə vermişdır. Həmin müsahibənin mövzusu Prezident İlham Əliyevin 1 sentyabr 2018-ci il tarixində Soçiyə son rəsmi səfəri çərçivəsində imzalanmış müqavilələrin kontekstində inkişaf edən Azərbaycan-Rusiya əlaqələri ilə bağlı idi. İmzalanmış həmin müqavilələrdə SOCAR, Rosneft və Qazprombank arasındakı əlaqələrin genişləndirilməsi nəzərdə tutulur.




**Fərid Cəfərov ümumilikdə Azərbaycan-Rusiya əlaqələri haqqında danışdı və son imzalanmış müqavilələrin kontekstində Rusiyadakı dövlət strukturlarının Azərbaycanın istər özəl, istərsə də dövlət şirkətlərinə göstərdikləri müsbət münasibəti vurğuladı.**

Belə ki, illik istehsal gücü 200 mln. tondan artıq olan və neft satışlarını adətən neft alıcılarının tenderlərdə təklif etdikləri ən yüksək qiymətlərlə həyata keçirən Rosneft şirkəti (10%-i dövlətə məxsusdur) Soçidə imzalanmış həmin müqavilələrdən birinə əsasən, SOCAR-ın Türkiyədəki neft emalı zavoduna istənilən tender prosesindən kənar ildə 10 mln. ton ağır xam neft təchiz etməyi öhdəsinə götürmüşdür. Türkiyədəki bu neft emalı zavodunun ildə 10 mln. ton xam neft emal etmək gücü olan ən müasir zavod olduğunu qeyd etdikdən sonra F.Cəfərov vurğuladı ki, ağır neft növlərinin bir bareli “Azeri light” kimi yüngül neft növlərinin bir barelindən təqribən 3$ ucuz olmasına baxmayaraq, ağır neftlə yüngül neftin satışının bir tonu arasında hesablanmış fərq 20$ təşkil edir. “Odur ki, SOCAR-ın Türkiyədəki zavodunda emal edilən ağır neft markalarının hər milyon tonu Azərbaycana 22 milyon ABŞ$ həcmində əlavə gəlir gətirəcək. Zavod özünün hesablama istehsal gücünə çatdıqda isə, bu rəqəm ildə 200 milyon ABŞ$-dan artıq olacaq. Həmin müqavilələrin vəd etdiyi belə geniş əməkdaşlıq perspektivləri Rusiya dövlət orqanlarının ölkəmizlə çox şaxəli əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsinə göstərdikləri müsbət münasibətinin göstəricisidir”.

**“SOCAR-ın Türkiyədəki zavodunda emal edilən ağır neft markalarının hər milyon tonu Azərbaycana 22 milyon ABŞ$ həcmində əlavə gəlir gətirəcək”.**

“Soçi görüşü zamanı imzalanmış ikinci sənəddə Azərbaycandakı neft yataqlarının işlənməsi sahəsində Rosneft şirkəti ilə SOCAR arasında əməkdaşlığın yaradılması nəzərdə tutulur. Bütün apstrim müqavilələri kimi uzun müddətə bağlanmış bu müqavilə Rusiyanın Azərbaycanla möhkəm iqtisadi və ictimai əlaqələrə inandığını göstərir və ölkəmizin apstrim sektoruna uzun müddətli investisiyaların yatırılmasını vəd edir”, - deyə F.Cəfərov davam etdi.
Üçüncü sənəd SOCAR, Qazprombank and “Russian Expo Centre” təşkilatı arasında imzalanmışdır. Bununla əlaqədar, Fərid Cəfərov Qazprombankla daha əvvəlki əməkdaşlığın əlverişli şərtləri və səmərəli nəticələri barədə ətraflı məlumat verdi.

**F. Cəfərov Qazprombankla əvvəlki əməkdaşlığın əlverişli şərtləri və səmərəli nəticələri barədə ətraflı məlumat verdi.**

“Rusiya ilə Azərbaycan arasındakı ikitərəfli münasibətlərin dostluq, yoxsa rəqabət əlaqələri olduğunu soruşsalar, deyə bilərik ki, iki ölkə arasındakı bu əlaqələr bu spektrin dostluq tərəfindədir. Həyata keçirilən apstrim layihələri böyük miqyaslıdır və ən azı 1 milyard ABŞ dollarına başa gələn. Amma onlar yalnız böyük gəlirlər vəd etmir, onlar həm də olduqca real risklərlə bağlıdır. Risklərin ədalətlə bölüşdürülməsi bu cür layihələr çərçivəsində məhsuldar əməkdaşlıq üçün möhkəm zəmin yaradır. “SOCAR RUS” şirkətinin rəhbəri olaraq deyə bilərəm ki, lap başdan bizim məqsədimiz ikitərəfli əməkdaşlıq ərçivəsində hər iki ölkəyə əlverişli olan iqtisadi fəaliyyət sahələri müəyyən etmək olmuşdur. Aşağı qiymətlər və müasir texnologiyalar sayəsində Rusiyada istehsal olunan avadanlıqlar Azərbaycan şirkətlərinə rəqabət üstünlüyü qazandırır”, - deyə Baş Direktor qeyd etdi.
Soçidə imzalanmış üç müqavilənin ümumi əhəmiyyəti haqqında verilən suala cavab olaraq Baş Direktor bildirdi: “Zənnimcə, əldə edilən razılıqlar Rusiya hökumət orqanlarına, şirkətlərinə və rus xalqına təkidlə onu göstərir ki, Rusiya Azərbaycanla uzunmüddətli tərəfdaşlıq və dostluq etmək arzusundadır”.
Müsahibə zamanı cənab Cəfərov son dövrdə dünyanın ən yaxşı treyderləri arasında 9-cu yeri tutan “SOCAR Trading” şirkətinin uğurlu fəaliyyəti barədə danışdı. O, 2017-ci ildə şirkətin illik dövriyyəsinin təqribən 48 milyard ABŞ$ təşkil etdiyini vurğuladı və qeyd etdi ki, şirkət tərəfindən satılan malların/materialların yalnız 25% Azərbaycan mənşəli olub.
Aşağıdakı linklə keçid edərək 20 dəqiqədən bir qədər az davam edən həmin müsahibə ilə onlayn tanış ola bilərsiniz:

https://www.youtube.com/watch?v=I0W3y2L_Hqg

# İdarəetmə məntəqəsi zavodlarımızın düşünən beynidir



## Yeni qabaqcıl layihə

İdarəetmə məntəqəsi, əməliyyatlar mərkəzi və ya əməliyyatlara nəzarət mərkəzi (OCC) iri müəssisələrdəki fəaliyyətin monitorinqi və nəzarəti üçün nəzərdə tutulan mərkəzləşdirilmiş bir məkandır. İdarəetmə məntəqəsinin məqsədi istehsalat proseslərinə nəzarət etməkdən ibarətdir. “SOCAR Polymer” zavodundakı idarəetmə məntəqəsi kimya-texnoloji qurğulardan kifayət qədər uzaq olan ayrıca binada yerləşir. Mövqeyindən asılı olmayaraq, idarəetmə məntəqəsi təhlükəsiz məkanda yerləşməlidir ki, buradakı operatorlar istehsal zamanı kimyəvi proseslərə və zavodun mühəndis şəbəkələrinin işinə real vaxt rejimində effektiv və səmərəli nəzarət edə bilsin.

Çoxsaylı elektron ekranlar, nəzarət panelləri və məntəqənin hər yerindən yaxşı görünən iri divar monitorları ilə təchiz edilmiş “SOCAR Polymer” zavodunun idarəetmə məntəqəsinin bir neçə növbəyə bölünmüş personalı sutkada 24 saat, həftədə 7 gün və ildə 365 gün fəaliyyət göstərir. İstehsalata fasiləsiz nəzarət təmin etmək məqsədi ilə idarəetmə məntəqəsində daim növbətçi briqadalar mövcuddur. Təhlükəsizliyin təmin olunması və fəaliyyətin uçotunun aparılması məqsədi ilə idarəetmə məntəqəsi yaddaşa yazılan fasiləsiz video-nəzarət altındadır.

İdarəetmə məntəqəsinin dayanmadan fəaliyyət göstərməsinin həyati əhəmiyyət daşıdığına görə məntəqənin yerləşdiyi bina fasiləsiz enerji təminatı (UPS) və hava kondisionerləri sistemi ilə təchiz edilmişdir. Həmin binada ayrıca UPS otağı, telekommunikasiya xətləri yerləşən otaq, sensorlu data ötürücülərindən daxil olan məlumatları qəbul edən avadanlıq stellajları yerləşən otaq, elektrik paylayıcı qurğular/şitlər yerləşən otaq, NÖC texnikləri üçün mühəndis-texniki otaq, fayllar saxlanılar otaq, iclas otağı, inzibati otaq, istismar personalı üçün təlim zalı, habelə PP və YSPE istehsal növbələrinin supervayzerləri üçün 2 otaq yerləşir.

*Tarixi qeyd:*

Mərkəzləşdirilmiş idarəetmə məntəqələri 1920-ci illərdən etibarən istehsalat müəssisələrində qurulmağa başlanmışdır.



## Təhlükəsizlik texnikası hər şeydən əvvəldir

Keçmişdə kimya zavodlarında baş verən partlayışlar bir çox adamın həlak olması, qurğu və avadanlığa isə çox ciddi ziyanın dəyməsi ilə nəticələnirdi. Müəyyən sektorlarda mövcud olan risklər sadəcə yüksək qəza ehtimalı ilə deyil, həm də həmin qəzaların qorxunc nəticələri ilə bağlıdır. Son 50 ildə inşa edilmiş kimya-emalı qurğularından sadəcə bir neçəsi belə riskləri nəzərə alan layihəyə əsasən inşa olunduğu ilə öyünə bilər. Aşağıdakı hadisələr istehsalat sahəsində yerləşən idarəetmə məntəqəsinin fəaliyyətinə mənfi təsir göstərə bilər:

- Buxar buludlarının partlayışları (BBP);
- Buxarın şişməsi nəticəsində baş verən partlayışlar;
- Təzyiq sıçrayışları;
- Ekzotermik reaksiyalar;
- Toksik qazların buraxılması;
- Yanğınlar.





İdarəetmə məntəqəsinin qəza halında salamat qalması və fəaliyyətini davam etdirməsi istehsalatın nəzarət altında saxlanması və vaxtında qəza-xilasetmə tədbirlərinin görülməsi baxımından son dərəcə əhəmiyyəti bir şərtdir. Son onilliklər ərzində idarəetmə-dispetçer məntəqələrinin və otaqlarının layihələrinə çoxlu təkmilləşdirici amillər daxil edilmiş. Qeyd etmək lazımdır ki, son dərəcə əhəmiyyətli olan həmin məkanların effektivliyinin və təhlükəsizliyinin təmin edilməsi baxımından düzgün layihələrin nə qədər böyük rol oynadığı anlayışı artmışdır. Beynəlxalq Standartlaşma Təşkilatının 2000-ci ildə dərc etdiyi standartlar sayəsində dünya ictimaiyyəti idarəetmə-dispetçer məntəqələrinin layihələrində təhlükəsizlik texnikasının əhəmiyyəti barədə geniş məlumat əldə etmişdir. Konkret olaraq ISO 11064 saylı standartda idarəetmə-dispetçer mərkəzlərinin layihələri qarşısında müvafiq erqonomika tələbləri qoyulur, habelə maksimal effektivlik və təhlükəsizliyin təmin ediləsi üçün iş yerlərinin yerləşmə planları və ölçüləri müəyyən edilir. Ən qabaqcıl təcrübələrə əsaslanan həmin metodik göstərişlərin tələblərinə bütün sektorlarda fəaliyyət göstərən idarəetmə-dispetçer məntəqələrində riayət edilməsi tövsiyə olunur. Bizim zavodlarda da həmin tələblərə tam riayət edilməkdədir.
"SOCAR Polymer" zavodundakı idarə etmə məntəqəsinin layihəsi elə işlənib hazırlanmışdır ki, zavodda baş verə bilən istənilən gözlənilməz və ya arzuedilməz istehsalat hadisəsi və ya qəza halında zavodun fəaliyyətinə nəzarətin qorunub saxlanması təmin edilir.
İdarəetmə məntəqəsinin yerləşdiyi binanın layihəsi işlənib hazırlanarkən partlayışlar və təzyiq sıçrayışlarının yarada biləcəyi təhlükələr də nəzərə alınmışdır. Həmin binanı bayırdan təhdid edən partlayış və digər mənfi təsirlərdən qorumaq, partlayış nəticəsində yaranan yüklərin və hərarətin idarəetmə məntəqəsinin içinə keçməsinin qarşısını almaq üçün divarlar kifayət qədər massiv və qalın inşa edilmişdir.
Qəza halında qurğuların üzərində quraşdırılmış idarəetmə panellərinin özlərini asanlıqla qoruması qeyri-mümkündür. Buna görə də onları qəza halında işlək vəziyyətdə saxlamaq üçün müxtəlif üsullardan istifadə edilmiş, habelə ehtiyat faktorları tətbiq edilmişdir. PP və YSPE zavodları üçün idarəetmə-dispetçer məntəqəsində quraşdırılmış ayrı-ayrı idarəetmə panellərinin konstruksiyaları elə işlənib hazırlanmışdır ki, tələb olunduqda birisi digərinin yerinə istifadə edilə bilər.
Qəza halında zavodların fasiləsiz fəaliyyətini təmin etmək, habelə içəridəki avadanlığı və işçiləri qorumaq məqsədi ilə idarəetmə məntəqəsi mürəkkəb təhlükəsizlik və yanğından mühafizə sistemləri ilə təchiz edilmişdir. Qəza və ya təhlükə baş verdiyi hallarda həmin idarəetmə məntəqəsindən istehsalat sahəsində qapanıb qalmış personal üçün sığınacaq kimi də istifadə etmək olar.

Toksik qazların buraxılması ehtimalını nəzərə alaraq idarəetmə məntəqəsi yerləşən bina müvafiq qaydada kipləşdirilmişdir ki, içəri sızan qazların konsentrasiyası operatorların sağlamlığına və onların qurğulara nəzarət etmə qabiliyyətinə mənfi təsir göstərməsin. Binanın havalandırma sistemi çox böyük diqqətlə işlənib hazırlanmışdır. Hava çəkən kanallarının mənfi təsirə məruz qala bilən yerlərdən uzaqda yerləşdiyi bu sistem qəza halında havanın bayırdan içəri sorulmasını istisna edir. Tüstünün içəri sızmasının qarşısı toksik maddələrin qarşısı alındığı qaydada alınır.

**Erqonomika**
Hərəkət etmək üçün optimal iş sahəsi, akustika, işıqlandırma, habelə işçilərin sağlamlığı və təhlükəsizliyi ilə bağlı amillər daxil olmaqla idarəetmə məntəqəsinin konstruksiyası zəruri erqonomik və estetik xüsusiyyətlərə malikdir. Erqonomika standartları personalı və avadanlığı elə yerləşdirməyi tələb edir ki, səs-küyü və diqqəti yayındıran digər mənfi amillərin təsiri minimuma endirilsin və operatorlar qəza halında idarəetmə məntəqəsinə rahatlıqla daxil ola, oradan çıxa və biri-biriləri ilə təmas qura bilsin.
Zavodlarımızın idarəetmə məntəqəsinə təkcə idarə etmə otağı və texniki dəstək otaqları daxil deyil, burada həm də mətbəx, dincəlmə və istirahət otağı, namaz otağı və fiziki qüsurları olan işçilər üçün müəyyən qurğular yerləşir.
İdarə etmə məntəqəsi istər az, istərsə də çoxsaylı personalın fəaliyyət göstərməsi üçün kifayət qədər genişdir. Onun fəza yerləşmə həlli həm sözlə, həm də yazışma ilə ünsiyyət qurmaq üçün rahatdır və kollektiv şəkildə işləmək üçün hər cür şərait yaradır. Fəaliyyətin razılaşdırılmış surətdə həyata keçirilməsini təmin etmək üçün PP və YSPE zavodlarının idarə etmə panelləri analoji konstruksiyaya malikdir.
Həmin idarəetmə panellərinə yalnız müvafiq qaydada giriş hüququ/keçid əldə etmək olar, odur ki, texniki xidmətin göstərilməsi zaman avadanlığın təsadüfi işə salınması mümkün deyil. İnsan səhvi ehtimalını istisna etmək üçün panellərin arxasındakı avadanlıq müvafiq qaydada kodlaşdırılmışdır.
Əvvəllər iri neftayırma və ya kimya zavodunun əməliyyatlarını idarə edən mərkəzlərdə olan istənilən adam yaxşı təşkil və təchiz edilmiş idarəetmə məntəqəsi nə deməkdir dərhal başa düşür. "SOCAR Polymer"in lisenziarları olan "LyondellBasell" və "INEOS" şirkətləri də daxil olmaqla bir çox beynəlxalq ekspertin fikrincə, bizim zavodunuzun idarəetmə məntəqəsi eyni miqyaslı kimya emal müəssisələri üçün müəyyən edilən ən qabaqcıl standartların tələblərinə cavab verir.

# “Tecnimont” şirkəti “SOCAR Polymer” layihəsi çərçivəsində istehsalat hadisələri nəticəsində iş vaxtının itkisi olmadan 16 milyon adam-saat həcmində işin yerinə yetirilməsini nailiyyət olaraq qeyd etdi



19 sentyabr 2018-ci il tarixində “Tecnimont/KT-Kinetics Technology” şirkətinin Layihə qrupu şirkətin “SOCAR Polymer” Layihəsi çərçivəsində Polipropilen və Yüksək Sıxlıqlı Polietilen zavodlarını inşası prosesində əldə etdiyi vacib bir nailiyyəti qeyd etdi. Polipropilen zavodu artıq işə salınmış, Yüksək Sıxlıqlı Polietilen zavodundakı tikinti işləri isə təqribən 98% başa çatdırılmışdır.




PP/U&O and HDPE PROJECT
CONGRATULATIONS
16.000.000
SAFE MAN HOURS WITHOUT Lost Time Injury
THANK YOU FOR WORKING SAFELY
KT
Kinetics Technology


PP/U&O and HDPE PROJECT
CONGRATULATIONS
16.000.000
SAFE MAN HOURS WITHOUT Lost Time Injury
THANK YOU FOR WORKING SAFELY
KT
Kinetics Technology

Bu əlamətdar nailiyyətə həsr olunmuş tədbirdə “SOCAR Polymer” MMC-nin rəhbərliyi, “Tecnimont” və “Maire Tecnimont” şirkətlərinin yüksək səviyyəli nümayəndələri, “USTAY” subpodratçı şirkətinin rəhbərliyik nümayəndələri və tikinti işlərində iştirak edən 1200 işçinin hamısı iştirak etdilər.
Tədbir zamanı bütün tərəflər aralarındakı əməkdaşlığa görə öz razılıqlarını ifadə etdilər. İstehsalat hadisələri nəticəsində iş vaxtının itkisi olmadan 16 milyon adam-saat həcmində işin yerinə yetirilməsi çox əhəmiyyətli bir SƏTƏM göstəricidir. Bu hədəfə nail olmaq istiqamətində çəkilən zəhmət və göstərilən səylərə görə minnətdarlığın ifadəsi olaraq “SOCAR Polymer” MMC tərəfindən “Tecnimont/ Maire Tecnimont” şirkətinə, “Tecnimont/ Maire Tecnimont” şirkəti tərəfindən isə “USTAY” şirkətinə təşəkkür plaketləri təqdim edildi. Kollektiv iş və SƏTƏM tələblərinin icrası nəticəsinə əldə edilmiş bu möhtəşəm nailiyyəti yaddaşlara həkk etmək məqsədilə xüsusi olaraq bu tədbir üçün tikilmiş köynəklər nümayiş etdirildi və həmin günün xatirəsi olaraq layihədə iştirak etmiş hər işçiyə bir ədəd köynək hədiyyə edildi.









PP & HOPE PROJECTS - AZERBAIJAN
16 million safe man hours
Without Lost Time Incidents
August 2018





# Təcrübəçilərin yekun təqdimatları nümayiş etdirildi




**"SOCAR Polymer" şirkətində 8 həftəlik təcrübə proqramını başa vurduqdan sonra öz fərdi təqdimatlarını şirkətin rəhbərliyinə nümayiş etdirmək üçün 23 təcrübəçi 2018-ci ilin 14 və 17 sentyabr tarixlərində yenidən şirkətin Bakı ofisindəki iclas zalında toplanmışdılar. Tədbirin məqsədi təcrübəçilərin əldə etdikləri bilikləri, iş prosesindəki iştiraklarını və aldıqları tövsiyələrdən çıxardıqları nəticələri nümayiş etdirməkdən, və bununla da şirkətdə keçirdikləri qısa müddətdən sonra onlara təqdirəlayiq iz qoymaq üçün imkan verməkdən ibarət idi. Yekun tapşırığa yaxşı hazırlaşmış təcrübəçilər sanki Malkolm Littlın təqdimatların birində bəyan etdiyi prinsipə əməl etmişdilər: "Gələcək onu qarşılamaq üçün bu gün hazırlaşanlara məxsusdur". Təcrübə proqramı ərzində gördükləri uğurlu işləri ən yaxşı formada nümayiş etdirməklə şirkət təcrübəçilər rəhbərliyinin diqqətini cəlb etməyə çalışırdılar. Onların əldə etdikləri məlumatları cəlbedici formada təqdim etmək bacarıqları özünü bariz şəkildə büruzə verirdi. Həmin təqdimatların mövzuları aşağıdakı cədvəldə göstərilir:**






# Təcrübəçilər haqqında qısa etüdlər

Biz təqdimat edən təcrübəçilərə çəkdikləri zəhmət üçün öz minnətdarlığımızı bildirir və onlara gələcək işlərində uğurlar arzulayırıq. Bununla yanaşı, təcrübəçilərimizi daha yaxşı tanımaq üçün aşağıda onlar haqqında qısa şəxsi məlumatlar təqdim edirik.



























## Əminə Hacıyeva

Təcrübə profili: MTT və Təchizat zəncirin idarə olunması (PSCM)/ Logistika

**ADA Universiteti (2014-2019)**

İctimaiyyətlə əlaqələr üzrə bakalavr/ İşgüzar inzibatçılıq (ikinci ixtisas olaraq)

**Fəaliyyəti və nailiyyətləri:**

- Təhsildəki uğurlarına görə sertifikat
- Rektorun fəxri siyahısına daxil edilmişdir
- Şotlandiyanın Qlazqo universiteti ilə Tələbə mübadiləsi proqramında iştirak etmişdir (2017-ci ilin bahar semestri)
- Orta attestat balı 3,80.

“Bu təcrübə proqramında iştirak etməmişdən əvvəl maddi-texniki təminat və logistika sahəsində həyata keçirilən fəaliyyətlərlə daha yaxından çox tanış olmaq istəyirdim. Bunun səbəbi bəlkə universitetdə keçdiyim kurslar, bəlkə də bu peşənin gender baxımından mənə daha çox münasib olduğundan ibarət ola bilər. Təcrübə prosesində logistika şöbəsinin aparıcı mexanizmləri ilə tanış oldum. Universitetdə əldə etdiyim nəzəri bilikləri hər dəfə praktikada tətbiq etmək üçün fürsət olanda, düzgün seçim etdiyimə inamım daha da artırdı”.

Hələlik mənim “SOCAR Polymer”in Logistika şöbəsindəki ilk missiyam başa çatmışdır. Mən məhz belə bir təcrübə keçəcəyimə ümid edirdim. Bir şey əldə etmək istəyirsənsə, geniş düşüncəli olmalı və özünə inanmalısan. Reallıq axan çay kimidir. İstəsələr də, istəməsələr də, adamlar çaya girib onun axarı ilə üzməyə meyl edirlər. Amma çoxu unudur ki, nəticə etibarı ilə, onlar özləri axının istiqamətini müəyyən edirlər”.



## Aygül Əhməd

Təcrübə profili: Maliyyə

**“Zəkalar” orta məktəbi**
**Bakı Mühəndislik Universiteti**
Dünya iqtisadiyyatı

**İş təcrübəsi:**
- Bakı Avropa Oyunları zamanı könüllülər dəstəsində işləmişdir

**Fəaliyyəti və nailiyyətləri:**
- Universitetdəki sosial innovasiyalar parkında “start-up” təlimlərinin keçirilməsində iştirak etmişdir
- Orta attestat balı 91
- ACCA (Andlı Sertifikatlı Mühasiblər Assosiasiyası), səviyyəsi F3 (ACCA-nın digər səviyyələri üzrə təhsil alır).

“SOCAR Polymer”dəki təcrübə mənim gözlədiyimdən də yüksək səviyyədə keçdi. Maliyyə nəzəriyyəsinin praktikada tətbiq edilməsi nəzəriyyənin özü qədər cəlbedici olub-olmadığı məni həmişə maraqlandırmışdır. Təcrübə müddəti ərzində mən həmin nəzəriyyəni praktikada tətbiq etmək imkanı əldə etdim və başa düşdüm ki, praktika nəzəriyyənin özündən daha maraqlıdır. Maliyyə şöbəsinin kollektivinin tam hüquqlu üzvü olaraq qeyri-nəzəri tapşırıqları yerinə yetirməkdən həqiqətən həzz aldım. Düzünü desək, mən rəqəmləri sevirəm və onlarla məşğul olmaq xoşuma gəlir. Mən həm də analitik bacarıq tələb edən peşələrə üstünlük verirəm. Odur ki, maliyyə sahəsində işləməyi özümə peşə seçmişəm. Gələcəkdə özümü maliyyə direktoru vəzifəsində görürəm. Mən bu sahədəki karyeramı davam etdirmək istəyirəm, çünki burada öyrənməli hələ çox şey var.
Mənim ən böyük xəyalım dünya səyahətinə çıxmaq, uzaq diyarları ziyarət etmək və ekstremal mühitlərlə tanış olmaqdır”.

## Elnur Namazov

Təcrübə profili: Maliyyə

**Azərbaycan Dövlət İqtisadiyyat Universiteti (SABAH qrupları)**
Maliyyə üzrə bakalavr (2015-2019)

**TQDK balı: 614**

**Fəaliyyəti və nailiyyətləri:**
- IELTS imtahanında nəticəsi 7
- Şahmat üzrə birinci dərəcə
- Bakı məktəbləri arasında keçirilmiş müxtəlif müsabiqələrdə mükafatlar almışdır
- Gitara çalmaqdan və oxumaqdan çox xoşu gəlir
- Orta attestat balı 92,04



“Mən öz karyeramı maliyyə sahəsində inkişaf etdirməyi planlaşdırıram. Maliyyə investisiyaları sahəsindəki biliklərimi genişləndirmək və real maliyyə layihələrində iştirak etməklə müvafiq səriştə və bacarıqlarımı artırmaq istəyirəm. Yaxın gələcəkdə özümü investisiya bankında menecer olaraq görürəm. 2011-ci ildən bəri asudə vaxtımda gitara çalır və oxuyuram. Şahmat oynamağı da çox sevirəm və Bakıda keçirilmiş məktəblər arası müsabiqələrdə bir neçə mükafat almışam.
Mən məqsədyönlü adamam və hesab edirəm ki, qeyri-mümkün heç bir şey yoxdur.”



## Elgün Almasov

Təcrübə profili: Kompleks Planlaşdırma/İstehsal

### Bakı Mühəndislik Universiteti (2013-2018)

Sənayenin təşkili və idarə olunması üzrə bakalavr

### Milli İqtisadiyyat və Kooperasiya Universiteti

- İqtisadiyyat və idarəçilik üzrə magistr

**TQDK balı-635**

**Fəaliyyəti və nailiyyətləri:**

- Dövlət təqaüdçüsü olmuşdur
- Orta attestat balı 97
- Universitetlər arası İntellektual oyunlar klubu müsabiqəsində 3-cü yer.

"SOCAR Polymer" məzunlara və hələ oxuyan tələbələrə öz bacarıqlarını real iş mühitində tətbiq etmək və özlərini göstərmək üçün əla şərait yaratmışdı. Təcrübə proqramı gənclərə gələcək ixtisaslaşma sahələrində çox qiymətli praktiki iş təcrübəsi qazanmaq imkanı verdi. Təcrübə proqramı keçdiyim müddət ərzində mən kollektiv işin nə olduğunu gördüm və real layihələrdə iştirak etdim ki, bu da mənim həm texniki kvalifikasiyamı, həm də işgüzar əlaqələr üçün çox vacib olan ünsiyyət qurmaq bacarıqlarımı genişləndirdi. Rəhbərim və bütün kollektiv üzvləri inkişaf etməyim üçün əllərindən gələn köməyi göstərirdilər. O vaxta qədər mən müxtəlif sektorlarda bir neçə təlim kursu keçmişdim, "SOCAR Polymer"in təcrübə proqramında iştirakım isə mənə yeni fəaliyyət sahəsi ilə tanış olmaq üçün daha gözəl bir imkan verdi.

Mən məşhur ixtisaslaşdırılmış universitetlərdən birində təchizat zənciri və ya əməliyyatların idarə olunması sahəsində fəlsəfə doktoru dərəcəsi əldə etmək niyyətindəyəm. Mən həm də texnoloji və ya innovativ bir layihədə layihə meneceri olaraq işləmək arzusundayam, bu isə "PMI" sertifikatı tələb edir. Bundan başqa mən aeronavtika ilə maraqlanıram".

## Elvin Əliyev

Təcrübə profili: Kompleks planlaşdırma/Satışlar və paylanma

### Amerika Ali Biznes Məktəbi

İşgüzar inzibatçılıq üzrə bakalavr

**Fəaliyyəti və nailiyyətləri:**

- Beynəlxalq Tələbə Assosiasiyasının Nümayəndəsi (2014)
- Universitetdə Tədbir meneceri (2015)



"SOCAR Polymer" həqiqi peşəkar mühitdə işləmək və özümü kollektivin bir hissəsi hiss etmək üçün mənə gözəl bir fürsət verdi. SAP proqram təminatından istifadə imkanı satış şöbəsində həyata keçirilən ticarət əməliyyatlarının incəliklərini daha yaxşı başa düşməyə kömək etdi. Rəhbərimin verdiyi metodik göstərişlər və təlimatlar, təqdimatlar və bazar təhlilləri haqqında hesabatlar mənim satış və məhsulların paylanması sahəsində əldə etdiyim bilikləri artırdı və özümə olan etimadı möhkəmləndirməyə kömək etdi.

Mənim karyera pilləkəni ilə qalxmağıma ilham verən məşhur amerikan atalar sözüdür: "Könlü balıq istəyən özünü suya vurar". Əgər istədiyimizi əldə etmək üçün kifayət qədər zəhmət çəkiriksə, qarşımızda heç bir maneə dayana bilməz. Məşhur sahibkarların əksəriyyəti sıfırdan başlamış və biznesdə ikonaya çevrilməmişdən əvvəl dəridən-qabıqdan çıxmışlar.

Ən böyük arzum özümün şirkətimi yaratmaqdır, oyun industriyasında olsa, daha yaxşı olar. Azərbaycanla müqayisə etsək, Avropa və Şimali Amerikada video oyunlar sektoru bazarın nəhəng bir hissəsini tutur. Ona görə bu sahəni Azərbaycanda inkişaf etdirmək və ölkəmi dünya miqyasında keyfiyyətli oyunlar və müvafiq kompüter təminatı ilə tanıtmağı arzu edirəm."

## Elvin Hüseynov

Təcrübə profili: İstismar/İstehsal Texnologiyaları

### Bakı Mühəndislik Universiteti

Kimya texnologiyaları üzrə bakalavr

**İş təcrübəsi:**

- Akkord
- "Asphalt LLC"
- "Azersun Holding"
- "Schlumberger"
- H.Əliyev adına Neft emalı zavodu (Modernləşdirmə layihəsi).

**Fəaliyyəti və nailiyyətləri:**

- Universitetin Fərqlənmə Diplomu



"Mühəndis-texnoloq olaraq təcrübə keçərkən gündəlik fəaliyyətdə və nasazlıqların aşkar edilməsi prosesində iştirak edərək texnoloji avadanlığı və NÖC-ləri real istismar şəraitində müşahidə etmək imkanı əldə etdim və bundan çox faydalandım. Əldə etdiyim praktiki təcrübə özümü həqiqi mühəndis kimi hiss etməyə və müxtəlif bacarıqlarımı cilalamağa kömək etdi. Mən öz karyeramı neft-kimya sənayesində, konkret olaraq Layihə qabağı tədqiqat mərhələsində iştirak etməklə davam etdirmək və yekun etibarı ilə Azərbaycanın ən güclü mühəndis-texnoloqlarından biri olmaq istərdim. Asudə vaxtıma gəlincə, peşəkar rəqs dərsləri aldığımı və məktəbdə müxtəlif çempionatlarda və müsabiqələrdə iştirak etdiyimi qeyd edə bilərəm."




## Emil Kərimov

Təcrübə profili: İstismar/Texniki xidmət

### Bakı Ali Neft Məktəbi və "Heriot-Watt" Universiteti

Neft-qaz hasilatı texnologiyaları üzrə bakalavr

**TQDK balı: 667**

**İş təcrübəsi:**

- SOCAR-ın Kompleks Qazma İşləri Trestinin Qazma texnologiyaları departamenti nəzdində təcrübə
- Neft Daşları Neft-qaz Hasilatı İdarəsinin Neft-qaz hasilatı texnologiyaları departamenti nəzdində təcrübə

"Tam mənim mühəndis biliklərimə uyğun olan "SOCAR Polymer"dəki təcrübə proqramı mənim nizam-intizamımı möhkəmləndirdi və böyük həcmdə praktiki bilik və bacarıq əldə etməyimə imkan verdi. Bundan əlavə, qeyd etmək istəyirəm ki, həmkarlarım böyük peşəkarlar idi - mən heç təsəvvür edə bilməzdim ki, bu cür nəhəng müəssisədə işləmək bu qədər xoş və rahat ola bilər.
Hiss edirəm ki, öz məntiqi təfəkkürümü daha da inkişaf etdirməliyəm. Mənim ümdə məqsədim bacarıqları qlobal bazarlarda tələb olunan dünya səviyyəli bir mühəndis olmaqdır. İndi mən karyeramı davam etdirmək üçün mühəndis ixtisasını seçməli olacağam, çünki mənim təhsil ixtisasım keçdiyim praktiki təcrübə profilində bir qədər fərqlənir.
Asudə vaxtlarımda müxtəlif liqalarda oynanılan futbol yarışlarına baxıb onları təhlil edirəm."



## Fərid Əliyev

Təcrübə profili: İstismar/İstehsal Texnologiyaları

### Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Kimya texnologiyaları üzrə bakalavr

**İş təcrübəsi:**

- Azərikimya İB-nin Etilen-polietilen zavodunda təcrübə

**Fəaliyyət və nailiyyətləri:**

- "Schlumberger" şirkətinin Yay düşərgəsi
- Milli kikboksinq çempionatında 3-cü yer.

"Mənim bu təcrübə proqramından həqiqətən çox xoşum gəldi, çünki mənimlə əsil mühəndis kimi davranırdılar. Mən burada çox şey öyrəndim və anladım ki, düzgün peşə seçmişəm. Mən texnoloji proseslərlə, boru sistemləri və NÖC diaqramları ilə, texnoloji avadanlıqla işləməyi öyrəndim, kollektiv tərkibində işləmək qabiliyyətimi artırdım, hətta əsl mühəndis kimi fikirləşməyə başladım.
Mən Azərbaycanın aparıcı mühəndis-texnoloqlarından biri olmağı arzulayıram. Bunun üçün mən öz üzərimdə işləməli və işlədiyim şirkətin ümumi uğuruna ən çox fayda vermək iqtidarında olmaq üçün öz bacarıq və kvalifikasiya səviyyəmi artırmalıyam. Kimya texnologiyalarından çox xoşum gəlir və mən öz karyeramı məhz bu sahədə davam etdirmək istərdim.

Hobbi olaraq, avtomobil tüninqi il məşğul oluram və ümid edirəm ki, bir gün öz tüninq şirkətim olacaq".

## Cabbar Cabbarov

Təcrübə profili: MTT və Satış Zəncirinin İdarə olunması/ Material axınlarının idarə olunması

### ADA Universiteti

İşgüzar inzibatçılıq üzrə bakalavr

**Fəaliyyəti və nailiyyətləri:**

- TQDK-ın təqdimatı əsasında Prezident təqaüdü
- M.F Axundzadə adına təqaüd (ADA)
- Rektorun Fəxri Siyahısına daxil edilmişdir (ADA)
- "Start-up" layihəsi: Getnsmile.com.




"Təəssüratlarım haqqında danışsaq, demək lazımdır ki, personalın yeni işçiyə göstərdiyi ilk münasibət, xüsusən də - birbaşa rəhbərin münasibəti, əldə edilən iş göstəricilərinə təsir edən çox ciddi bir amildir. Bu baxımdan "SOCAR Polymer" nümunəvi bir şirkətdir. Burada mən həmişə birbaşa rəhbərimin, təlimçilərin və bütün "SOCAR Polymer" kollektivinin dəstəyini hiss edirdim. Bu təcrübə proqramı istər şirkətin əməliyyatlarında iştirak etmək, istərsə də yeni praktiki biliklər əldə etmək üçün mənə təklif olunan imkanlar baxımından bütün gözləntilərimi tam doğrultdu. Məlum məsələdir ki, işçi mühitinin bir hissəsi olmaq "SOCAR Polymer"də yüksək səviyyədə olan korporativ mədəniyyəti qəbul etmək deməkdir. Bu isə mənə ünsiyyət qurmaq və kollektivdə işləmək bacarıqlarımı xeyli təkmilləşdirmək imkanı verdi. Burada əldə etdiyim təcrübə fikirlərimi gələcək karyeram üzərində cəmləşdirməyə kömək etdi.

Hər şeylə maraqlanan bir təbiətim olduğundan mən mütaliə, müşahidə və ya müdrik adamlarla danışmaq vasitəsi ilə hər yerdə yeni şeylər öyrənməyi sevirəm. Gələcəkdə öz biznesimi qurmaq və uğurlu sahibkar olmaq istəyirəm."

## Jalə Hacıyeva

Təcrübə profili: Kompleks Planlaşdırma

**Bakı ali Neft Məktəbi**
Kimya texnologiyaları üzrə bakalavr

**“Heriott Watt” Universiteti**
tələbə mübadiləsi proqramı çərçivəsində

**TQDK balı: 649**

**İş təcrübəsi:**

- “Petkim” şirkətində təcrübə kursu
- H.Əliyev adına Bakı Neft Emalı zavodu
- Neft-qaz Elmi Tədqiqat və Layihələndirmə İnstitutunda təcrübə.

**Fəaliyyəti və nailiyyətləri:**

- Sertifikatlar: “Dənizdə İnsan Həyatının Qorunması Təlim Mərkəzi”, Peşəkar Etika”, “Liderlik Təlimi”.



“Bu, mənə bir çox yeni şey öyrədən qiymətsiz bir təcrübə idi. Hər gün yeni çətin vəzifələr və unudulmaz anlar ilə dolu idi. Mən həmişə zənn edirdim ki, ofis işi darıxdırıcıdır. Amma əslində tam əksi oldu. Birbaşa rəhbərimin verdiyi tapşırıqların yerinə yetirilməsi, mənin üçün yeni olan sahələrin öyrənilməsi, SAP proqram təminatı ilə işləmək və real prosedur və proseslərdə iştirak etməyim – bütün bunlar çox maraqlı idi. Mənim kimi geniş sahə təcrübəsi olan biri üçün planlaşdırma prosesində birbaşa iştirak etmək və neft-kimya sənayesinin kulis arxası ilə tanış olmaq imkanı əldə etmək kifayət qədər səciyyəvi bir hadisə idi.

Mən yeni şeylər öyrənib inkişaf etməyi heç vaxt dayandırmıram. Gələcəkdə mən tədqiqatlarımı bu sahədə davam etdirmək istəyirəm, çünki öyrənməyə hələ çox şey var.

Boş vaxtımda mən skripka çalıram, elmi fantastika oxuyuram, rəqs flaş-moblarında iştirak edirəm, stress atmaq üçün şəkil çəkirəm və voleybol yarışlarında iştirak edirəm. Mən universitetdəki intellektual oyun klubunun üzvüyəm və “Xəmsə”, “Breyn rinq”, “Nə? Harada? Nə vaxt?” kimi oyunlarda hər ay iştirak edirəm. Mən həm də çox punktual bir adamam, qanımdakı adrenalin mənə verilən tapşırıqları daha tez və səmərəli yerinə yetirməyə vadar edir. Dostlarımla mikro-biznes quraraq biz qolbaqlar, karton suvenirlər, kiçik hədiyyələr, bloknotlar düzəldib satırıq.

Ən böyük arzum dünyanın müxtəlif milli mətbəxlərinə məxsus təamlardan dadmaqdır.”



## Lamiyyə Məcidova

Təcrübə profili: İctimaiyyətlə Əlaqələr

**ADA Universiteti (2014-2019)**
İşgüzar inzibatçılıq üzrə bakalavr

**TQDK balı: 636**

**İş təcrübəsi:**
- Mənzər Hacıyeva - Dəbli paltar tikilişi şirkəti
- "ATL Tech-Information and Technologies"
- "SOCAR Polymer" şirkəti (İctimaiyyətlə əlaqələr şöbəsi).

**Fəaliyyəti və nailiyyətləri:**
- Orta məktəbdə bir neçə dəfə yazılı müsabiqələrdə 1-ci və 2-ci yerlər.

"SOCAR Polymer"dəki təcrübə proqramını başa vurduqdan sonra məndə ictimaiyyətlə əlaqələrin əhəmiyyətini daha yaxşı başa düşməyə başladım. Bir neçə həftə ərzində şirkətin obrazının İctimaiyyətlə əlaqələr şöbəsi vasitəsi ilə ictimaiyyətə necə təqdim olunduğunu müşahidə etdim. İctimaiyyətlə əlaqələr sahəsində işləyən adamın bütün korporativ tədbirlərdən xəbəri olmalı və o, bütün sektor və şöbələrlə möhkəm əlaqələr qurmalıdır. Ona görə bu praktika proqramı mənə böyük təcrübə qazandırdı və ünsiyyət qurmaq, şifahi və yazılı xəbərləşmə bacarıqlarımı genişləndirmək, habelə şəbəkədə işləmək üçün çox gözəl bir imkan verdi.

Gələcək karyeramda qadınlara dəstək vermək üçün əlimdən gələni etməyə çalışacağam. Əminəm ki, gender bərabərsizliyi köhnəlmiş sosial fenomendir. Mən sübut etmək istərdim ki, uğurun bünövrəsini intellekt, bilik və qabiliyyət təşkil edir. Gələcəkdə mən özümü bütün maneələri aradan qaldıran uğurlu bir sahibkar kimi görürəm.

Uşaqlıqdan yazıçı yaradıcılığından xoşum gəlir. Son zamanlar baş verən əhvalatları paylaşmaq məqsədi ilə sosial şəbəkədə bloq aparıram. Yorucu bir günün axırında həmin bloq mənə müəyyən razılıq və məmnunluq hissi bəxş edir. Ən böyük xəyalım bir gün kitab dükanında dolaşarkən Lamiyə Məcidin yazdığı kitaba rast gəlməkdir."

## Murad Talıbov

Təcrübə profili: İnformasiya Texnologiyaları

### Bakı Dövlət Universiteti

Kompüter Elmləri (ingilisdilli qrup)

**TQDK balı: 606**

**İş təcrübəsi:**

- İqtisadi İslahatlar və Rabitə Mərkəzi – İT üzrə təcrübəçisi
- “Qalay” start-up qrupunun təsisçisi və rəhbəri
- “İo developers” start-up qrupunun həm-təsisçisi.

**Fəaliyyəti və nailiyyətləri:**

- “ACM ICPC” Regional Müsabiqəsi 2016/2017 – Yüksək nailiyyət üçün tərifnamə
- Regional İnformatika Olimpiadaları 2011/2012/2013 - I yer
- Milli İnformatika Olimpiadası 2013 - II yer
- Universitetlər arası Milli İnformatika Olimpiadası 2016 - III yer
- Universitetlər arası Milli İnformatika Olimpiadası 2017 - II yer
- “Microsoft Imagine Cup 2017”, Milli Final - II yer.



“Mən tam olaraq İT pərəstişkarı deyiləm, mən həmişə yenilik axtaran biriyəm. Mən İntel şirkətinin həm-təsisçisi və ilk mikroçipi icad edən Robert Noysdan ilham alıram. Həmin ixtira bugünkü “hi-tech” dediyimiz fenomeni həyata gətirdi və nəticə etibarı ilə insanların həyatını kəskin surətdə dəyişdirdi. Hesab edirəm ki, “embedded” (konstruksiyaya əvvəlcədən inteqrə edilmiş) adlı sistemlərin və fiziki obyektlər internetinin (IoT) böyük potensialı vardır.

Mən “start-up” müəssisələrinin bir hissəsi olaraq “The Qalay” qrupunun rəhbəri və “İo developers” qrupunun həm-təsisçisi kimi tanınmışam. Biz görmə qabiliyyəti zəif olan adamlar üçün məlumatverici cihaz (kontroller), habelə kağız üzərində yazdığınız hər şeyi rəqəmsal formata salaraq sizin qaccetlərinizə göndərən “ağıllı” qələm işləyib hazırlamışıq. Hesab edirəm ki, insanların həyatına müsbət təsir etmək hər kəsin prioriteti olmalıdır. Mənim ümdə niyyətim elə İT innovasiyaları ixtira etməkdir ki, onlar bütün dünyanın mənafeyinə xidmət etsin və ya, ən azından, üz-üzə gəldiyimiz müəyyən məsələlərin həllinə kömək etsin.

Bundan başqa, tərk edilmiş ev heyvanlarına kömək etmək mənim hal-hazırdakı prioritetimdir.

Mən küçəyə atılmış və özlərinin qayğısına qalmaq üçün hələ çox kiçik olan pişik balalarını evimə aparıram. Buna görə də yaşadığım ev pişik sığınacağına oxşayır.”



## Nadir Namazov

Təcrübə profili: Boru kəmərlərinin/ sistemlərinin layihələndirilməsi

### Bakı Ali Neft Məktəbi (2015-2020)

Neft-qaz hasilatı texnologiyaları üzrə bakalavr

**TQDK bal: 695**

**İş təcrübəsi:**

- SOCAR-da (Neft Daşları) təcrübə proqramı
- SOCAR-da (28 may NQÇİ) təcrübə proqramı.

**Fəaliyyət və nailiyyətləri:**

- Məktəbi fərqlənmə ilə bitirdiyi üçün qızıl medal/ Məktəbi əla nəticələrlə bitirdiyi üçün qırmızı fərqlənmə diplomu
- Azərbaycan üzrə Kimya Olimpiadasının bürünc medalı
- Prezident təqaüdü
- Azərbaycan Respublikasının Dəniz Administrasiyasının təşkil etdiyi “Mobil Dəniz Cihazları” adlı personal təlimi
- SOCAR-ın Liderlik sertifikatı
- IELTS imtahanlarının nəticəsi 7.5 (2016).

“SOCAR Polymer”in bu təcrübə proqramı həm mühəndislik fənləri öyrənən, həm də digər ixtisaslara yiyələnməkdə olan tələbələr üçün real iş mühitini hiss etmək və ixtisaslarında təkmilləşmək baxımından əla bir fürsət idi. Mən təhlükəsizlik texnikasının qayda və prosedurlarını təfsilat ilə öyrəndim. Böyük tərifə layiq olan təlimçilərim boru kəmərləri/ sistemləri mühəndisliyi sahəsində biliklərimi daha da artırmaq üçün mənə hər cür şərait yaratmışdılar.

Ən əhəmiyyətlisi o idi ki, mən öz ixtisasım sahəsində praktiki təcrübə əldə etmiş oldum. Təcrübə müddətinin ən önəmli hissəsini biz real layihələr üzərində işləyir və şirkətin mühəndisləri ilə birgə sahədə vizual baxışlar keçirərək boru sistemlərinin elementlərinin bircə-bircə yoxlayırdıq. Bu da konkret nəticələr gətirirdi. Bundan əlavə, CAD proqram təminatından istifadə etməklə mən boru sistemlərinə aid bir neçə layihə tətbiq etdim.

Mən həm maarifləndirici, həm də maraqlı olan “Nə? Harada? Nə vaxt?” intellektual oyunu klubunun üzvüyəm və klubun müsabiqələrində iştirak etməyə vaxt tapıram. Bundan başqa, asudə vaxtımda filmlərə tamaşa edirəm.”

## Nərgiz Abbaszadə

Təcrübə profili: MTT və Satış Zəncirinin İdarə olunması/ Material axınlarının idarə olunması

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
Sənayenin Təşkili və İdarə olunması üzrə bakalavr

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti Gürcüstan Dövlət Universiteti ilə birgə**
Magistr dərəcəsi (ən yüksək qəbul balı)

**İş təcrübəsi:**
- SOCAR-ın Kadrlar departamenti nəzdində təcrübə (İnkişaf və milliləşdirmə) – 1 il 5 ay

**Fəaliyyəti və nailiyyətləri:**
- "H.Əliyev adına Bakı neft emalı zavodunda keyfiyyətə nəzarət" adlı magistr dissertasiyası
- Bakalavr dərəcəsi almaq üçün "Təchizat zəncirində tələbin proqnozlaşdırılması" adlı diplom işi.



"Təcrübə proqramı mənim həyatımı və karyeramı dəyişdirən bir təcrübə idi və mənə verilmiş bu fürsət üçün mən "SOCAR Polymer"ə çox minnətdaram. Bu təcrübə proqramı mənə peşəkar mühitdə real layihələr üzərində işləməyə imkan verdi. Bu təcrübə peşə sahəsində yeni biliklər əldə etməyə, ünsiyyət qurmaq bacarıqlarımı cilalamağa, özümə olan etibarı artırmağa və uzun müddətli karyera planları hazırlamağa mənə kömək etdi.

Son iyirmi il ərzində Azərbaycandakı iqtisadi vəziyyətdə ciddi dəyişikliklər baş vermişdir. İndi yaxşılaşdırılmış biznes mühiti və maliyyə mənbələrinin əlçatan olması sayəsində ölkə surətlə inkişaf edir. İnkişafa davam etmək üçün Azərbaycanın konkret olaraq kimya sənayesinin yeni layihələr həyata keçirən və gündəlik işləri görən səriştəli mütəxəssislərə ehtiyacı var. İqtisadi nəzəriyyələr və əlaqədar elmlər həmişə mənin diqqətimi cəlb etmişdir. İndi hiss edirəm ki, mən bu sahədə uğur qazana və potensialımdan tam istifadə edə bilərəm. Mən özümü çox məhsuldar, peşəkar və fərdi baxımdan həmişə inkişaf edən, heç vaxt məsuliyyətdən boyun qaçırmayan və öz personalının qayğısına qalan "SOCAR Polymer" kimi şirkətdə fəaliyyət göstərmək arzusunda olan bir mütəxəssis olaraq görürəm. Mən öz karyeramı bu sahədə davam etdirməyi planlaşdırıram, çünki hesab edirəm ki, mənim analitik və ünsiyyət qurmaq bacarıqlarım burada uğur qazanmağa imkan verəcək."



## Nərmin Həsənzadə

Təcrübə profili: İnsan resursları / Tədris və ixtisasartırma

**ADA Universiteti (2014-2018)**

Beynəlxalq əlaqələr üzrə bakalavr

**TQDK balı: 595**

**İş təcrübəsi:**

- Azərbaycan Respublikasının Almaniyadakı səfirliyi, Berlin, Təcrübə proqramı
- Amerikan Ticarət Palatası (AmCham) - Təcrübə proqramı
- "SOCAR Polymer"in Yay təcrübə proqramı, 2018.

**Fəaliyyət və nailiyyətlər:**

- Azərbaycan Qızıl xaç cəmiyyəti ilə birgə "Müsəlman dövlətlərinin Beynəlxalq Humanitar Hüquq normalarına uyğun gəlməsi" mövzusunda Tədqiqat layihəsi
- Rektorun Fəxri siyahısına daxil edilmişdir.

"Tədris və ixtisasartırma qrupunun bütün əməkdaşlar üçün fasiləsiz və yüksək keyfiyyətli tədris təmin etmək məqsəd ilə çox böyük zəhmət və səy sərf edir. Bunu məmnuniyyətlə qeyd etmək istərdim. Bu sənaye sektoru haqqında qiymətli məlumatlar əldə etmək, iş əlaqələri etikasını öyrənmək və peşəkar mühitdə işləmək üçün mənə imkan verildiyinə görə bu təcrübə proqramı haqqında məndə son dərəcə müsbət rəy formalaşmışdır. Burada hər şeyin nə qədər gözəl planlaşdırılmış və təşkil edilmiş olmasını qeyd etməyə bilmərəm. Bütün hallarda mənimlə bir peşəkar və kollektivin həqiqi üzvü kimi davranırdılar. Mənim maraqlarım memarlıqdan musiqiyə, tarixdən ictimai cərəyanlara qədər geniş bir diapazonda yerləşir. Müxtəlif tarixi dövrlərin mədəniyyətləri məni xüsusən maraqlandırır. Mən həm də poeziyanı sevirəm və hərdən özüm də şer yazıram. Amma üstünlük verdiyim hobbi – sobada un məmulatları bişirməkdir!"

## Nemət Həsənov

Təcrübə profili: Mühasibat uçotu

**Milli İqtisadiyyat və Kooperasiya Universiteti**

Beynəlxalq İqtisadiyyat Məktəbi

**Fəaliyyəti və nailiyyətləri:**

- Türkiyə, Gürcüstan və ABŞ-da gənc fəallar təşkilatlarının tədbirlərində iştirak etmişdir
- Yaradıcı yazılar müsabiqələrində 2-ci və 3-cü yerlərə çimişdir.



"Peşəkar bacarıqlarımı inkişaf etdirmək üçün mənə imkan verməklə bu təcrübə proqramı bir möcüzə yaratdı. Mən həqiqi iş yerinin necə olmalı və işlərin necə görülməli olduğunu öz gözlərimlə gördüm. Peşəkar inkişafım baxımından ən əhəmiyyətli məqam ondan ibrət idi ki, mən öz ixtisasım və tədqiqat sahəm olan mühasibat haqqında çox şey öyrənə bildim.

Bir az qəribə görünə bilər, amma mənim karyeramdakı ilhamım astrofizika ilə bağlıdır. İlk baxışdan astrofizika ilə mənim hazırkı peşəm arasında heç bir əlaqənin olmaması nə qədər görünsə də, bu iki sahə riyaziyyat baxımından biri-biri ilə bağlıdır. Öz uzaq gedən niyyətlərimdə mən geniş miqyaslı fikirləşirəm və milyonlarla insanın həyatını yaxşılaşdırmaq arzusunda olan Nikola Tesladan nümunə götürürəm. Mən də enerji, tezliklər və dalğalar məfhumları səviyyəsində xəyallar qurmağa çalışıram.

Mühasib olmaq qərarı verməmişdən əvvəl mən ictimai aksiyalarda iştirak edir və ehtiyacı olan adamlara kömək edirdim. Müxtəlif donorlardan əldə edilmiş qrantlar sayəsində mən həmçinin sosial demokratiya və insan hüquqları mövzusunda bir neçə layihə həyata keçirmişəm".



## Rauf Mahmudzadə

Təcrübə profili: İstismar / İstehsalat texnologiyaları

### Bakı Ali Neft Məktəbi

Kimya texnologiyaları üzrə bakalavr

**İş təcrübəsi:**

- "Petkim" şirkəti – Təcrübəçi (həm də layihə müsabiqəsinin qalibi)
- "Ernst & Young" şirkəti – Təcrübəçi.

**Fəaliyyəti və nailiyyətləri:**

- "Dərs Evində" təlimatçı və kimya fənni üçün material hazırlayan
- Beynəlxalq və Asiya Fizika Olimpiadalarında iştirak.

"SOCAR Polymer"ə gəlməmişdən əvvəl mən heç vaxt ehtimal belə etmirdim ki, polimer elminin və texnologiyalarının tətbiq edildiyi bu yer məndə bu qədər həvəs yaradacaq. Ətrafımda ilham dolu parlaq zəka sahibləri işəlyirdi. Bütün mühəndislər yüksək kvalifikasiyalı peşəkarlar idi. Sahədəki qurğuların istismarı prosesində hər gün müəyyən çətinliklər və problemlər ortaya çıxır. Mühəndislərin həmin problemlərə neçə təmkinlə və peşəkarcasına reaksiya göstərdiklərini öz gözlərimlə görüncə, mən fikirləşməyi necə öyrənməli və özümdə hansı keyfiyyətləri inkişaf etdirməli olduğumu anladım.
Hələ orta məktəbin yuxarı siniflərində oxuyarkən mən mühəndis olmağa hazırlaşırdım. Buna görə də ixtisasım üzrə universiteti bitirdikdən sonra mən kimya və ya texnologiyalar sahəsində ən uğurlu mühəndislərdən biri olmaq üçün məhz bu yolda getməyi davam edəcəyəm. Bundan başqa mən kimya mühəndisliyi sahəsində ixtiralar etməyi arzulayıram. Məsələn, kimya məhsullarının hazırkı istehsal metodlarını əhəmiyyətli dərəcədə təkmilləşdirən üsul tapmaq və ya həmkarlarımla birgə başdan axıra qədər bir proses və ya qurğu layihəsi işləyib hazırlamaq istərdim (EPC şirkətlərinin etdikləri kimi).
Mən səfər və macəraları sevirəm. Odur ki, arzularımdan biri də 30 yaşım olana qədər səyahətlərə çıxmaq və ən azı 50 ölkənin xalqı ilə tanış olmaqdır".

## Roman Abdullahzadə

Təcrübə profili: Layihələrin icrasına nəzarət sistem və vasitələri

### Bakı Mühəndislər Universiteti (2013-2018)

İstehsalat texnologiyaları üzrə bakalavr

### Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (2018-2020)

İstehsalat texnologiyaları üzrə magistr

**Fəaliyyət və nailiyyətləri:**

- "Ernst & Young" şirkətinin təşkil etdiyi 2018-ci il Biznes Məktəbində iştirak
- Məntiq Olimpiadasında 2-ci yer ("Master Academy").



"Özümü şirkətin bir hissəsi hiss etmək üçün mənə verilmiş fürsətə görə "SOCAR Polymer"ə çox minnətdaram. Təcrübə müddəti ərzində mən həqiqi iş mühiti ilə tanış oldum və bu da mənə öz peşəkar və ünsiyyət qurmaq bacarıqlarımı artırmağa imkan verdi. Mən Primavera P6 kimi yeni mükəmməl proqram təminatından istifadə etməyi və Primavera Risk təhlilləri aparmağı öyrəndim - bunu əvvəllər heç xəyal edə bilməzdim. Mən əminəm ki, təcrübə müddəti ərzində qazandığın yeni biliklər gələcək karyeramda rəqabət baxımından mənə müəyyən üstünlük verəcək.
Zənnimcə, biliklərə yatırılan investisiya ən böyük gəlir gətirir. Ona görə də mən fasiləsiz tədris konsepsiyasını çox cəlbedici hesab edirəm. Gələcəkdə ölkənin sənaye inkişafında vacib rol oynayacağımdan xeyli əminəm.
Boş vaxtlarımda şahmat və ya dostlarımla futbol oynayıram".



## Ruxsarə Meşkin

Təcrübə profili: Mühasibat uçotu

### Azərbaycan Dövlət İqtisad Universiteti

İqtisad üzrə bakalavr

### UNEC Biznes Məktəbi

UNEC Biznes Məktəbi

**Fəaliyyəti və nailiyyətləri:**

- Xüsusi istedadı olan tələbələr qrupunda oxumuşdur

"Hesab edirəm ki, təcrübə proqramları tələbələr üçün çox qiymətlidir, çünki burada onlar real həyatı öyrədir. Təcrübə proqramları adama məsuliyyət, diqqət və ambisiya hissi aşılayır. Əgər siz ünsiyyət qura bilmirsinizsə və biliklərinizi başqaları ilə bölüşdürməyi bacarmırsınızsa, onda sizin nə qədər biliyə malik olduğunuzun heç bir əhəmiyyəti yoxdur. Bu təcrübə proqramı mənim ünsiyyət qurmaq və peşəkar əlaqələr yaratmaq bacarıqlarımı xeyli artırdı. O həm də çox arzu etdiyim sahədə karyeramı davam etdirmək üçün yeni perspektivlər təmin etdi.

Mən sahibkar olmağı və başqaları üçün də imkanlar yaratmağı arzusundayam. "SOCAR Polymer" mənə gələcək fəaliyyətim üçün qiymətsiz yeni bacarıqlar və təcrübə qazanmağa kömək etdi. Nəzəri biliklərimi praktikada tətbiq etmək üçün mənə verilmiş imkan həm də özümə olan etibarımı artırdı.

Mənim ən ümdə məqsədim yaşadığım dünya üçün yaxşı şeylər yaratmaqdır".

## Samirə Vəliyeva

Təcrübə profili: Kompleks planlaşdırma/ Satışlar

### ADA Universiteti

İşgüzar inzibatçılıq üzrə bakalavr

**İş təcrübəsi:**

- Bakı Avropa Oyunlar
- İslam Oyunlar
- Formula 1 yarışları.

**Fəaliyyət və nailiyyətləri:**

- Paşa Bankın təqaüdü
- ADAU-nun "Mədəniyyətlər arası Klubunun" prezidenti
- Orta attestat balı 3.85/4.0.



"Hərçənd, ay yarım o qədər də uzun müddət kimi görünmür, həmin müddət mənə özümü şirkətin bir hissəsi kimi hiss etməyə imkan verdi. Buradakı kollektiv ilə işləmək xoşuma getdi. İlkin mərhələdə polimer sənayesi ilə əlaqədar biliklərimin az idi, amma mənim birbaşa rəhbərim və kollektivin digər üzvləri polipropilen və polietilenin zavodlarının funksiyalarını anlamaqda mənə həmişə kömək edirdilər. Bundan əlavə, mən SAP proqram təminatı ilə praktiki cəhətdən işləmək təcrübəsi əldə etdim.
Gələcəkdə mən güclü bir qadın və öz ayaqları üstündə möhkəm dayanan mükəmməl peşəkar olmaq istəyirəm. Buna görə də Azərbaycanın işgüzar qadın liderlərindən biri olmaq mənim ən böyük məqsədimdir. Mən yeni nəsil üçün və xüsusən də qadınlara kişi həmkarları kimi güclü olmaq üçün ilham verməklə nümunə olmaq arzusundayam.

Mən müxtəlif millətlərin nümayəndələri ilə dostluq etməkdən xoşum gəlir. Bu da məni iki il ərzində universitetdə "Mədəniyyətlər arası Kluba" başçılıq etməyə həvəsləndirmişdir".



## Şahlar İbadzadə

Təcrübə profili: Hüquq

### Bakı Dövlət Universiteti

Hüquq Məktəbi (2014-2018), nəticə 87%

**Fəaliyyət və nailiyyətləri:**

- 2012-ci ildə tar sinini üzrə 5 illik musiqi məktəbi bitirmişdir.
- IELTS imtahanlarında nəticə 8,0
- Azərbaycanı 2013-cü ildə Ankaradakı Gənclər Festivalında təmsil etmişdir
- 2017-2018-ci illərdə Tiflisdəki "Vis Pre-Moot" müsabiqəsində iştirak etmişdir.

"SOCAR Polymer"də keçdiyim təcrübə proqramı mənim üçün çox qiymətli bir təcrübə oldu, çünki mən həyatımda ilk dəfə böyük layihənin bir hissəsi olaraq fəaliyyət göstərirdim. Bu, hüquq sahəsindəki kompetensiyamı, yazılı təhlil və tədqiqat bacarıqlarımı, hətta düşüncə tərzimi inkişaf etdirməkdə mən çox kömək etdi. Bu təcrübə proqramı universitetdə öyrəndiyim və hələ də istifadə edə bilmədiyim üçün özümü narahat hiss etdiyim hüquqi nəzəriyyələrin tətbiqi ilə bağlı biliklərimi artırdı. Yüksək kvalifikasiyalı mütəxəssislər kollektivi ilə birgə işləmək və hərəsindən yeni faydalı bir şey öyrənmək çox xoşuma gəldi. Nəticədə, mən özümün gələcək karyeramın perspektiv strukturunu yenidən fikirləşib formalaşdırdım. Mənə ilham verən Korporativ Hüquq və onun təklif etdiyi geniş tədqiqat sahəsidir. Mənim ən böyük məqsədim işə düzəlmək, həmin işdən həzz almaq və çalışdığın məkanda özümü xoşbəxt hiss etməkdən ibarətdir. Pozitiv düşüncəli adamlar yaxşı abı-hava yaradır və əhvalı-ruhiyyəni bir neçə saniyəyə qaldıra bilir".

## Teymur Tarasov

Təcrübə profili: Kompleks planlaşdırma/ İstismar xarakteristikalarının təhlili

### Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Kimya texnologiyaları

**Fəaliyyəti və nailiyyətləri:**

- Azərbaycan Dövlət Neft və Sanaya Universitetində keçirilmiş Kimya Olimpiadasında 1-ci yer



"Təcrübə keçməmin əsas məqsədi kimya sənayesində praktiki təcrübə əldə etmək idi. "SOCAR Polymer" bu məqsədə çatmaq üçün mənə hər cür şərait yaratmışdı. Mən şirkətdə çox faydalı vaxt keçirdim.

İnkişaf istənilən karyeranın əsasıdır. Daxili inkişaf və artım arzusu olmadıqda heç bir karyera cəlbedici görünmür və inkişafın yerini durğunluq tutur. Məncə, şəxsi məqsədlər həm peşə seçimi, həm də bundan daha geniş dairəni əhatə etmək üçün qarşıda qoyulur. Adamlar ömürləri boyunca qarşılarında müxtəlif məqsədlər qoyurlar və onların əldə etdikləri nəticələr əslində onların kim olduqlarının, habelə daxili inkişaflarına və ya ümumilikdə cəmiyyətin inkişafına verdikləri töhfələrin əksidir.

Mən hər tərəfli, ahəngdar inkişaf etmək arzusundayam. Buna görə də mən elm və musiqi ilə məşğul oluram, kitab yazmağa çalışıram, sportla məşğul oluram və, əlbəttə, dostlarımla vaxt keçirirəm".



## Təranə Nəsibli

Təcrübə profili: Kompleks planlaşdırma/ Texniki xidmət

### Xəzər Universiteti

Neft-qaz hasilatı texnologiyaları bakalavr

### Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Qaz kondensatı yataqların işlənməsi texnologiyaları üzrə magistr

**Fəaliyyət və nailiyyətləri:**

- ADNSU-da keçirilmiş 66-cı Elmi-texniki konfransda 1-ci yer
- Rektorun Fəxri siyahısına daxil edilmişdir (Xəzər Universiteti)
- Xəzər Universitetində keçirilmiş “Spaghetti Bridge” layihə və mühəndis-texniki müsabiqəsində 1-ci yer

**Tədqiqatları və dərc edilmiş işləri:**

- Verilənlər Massivi, İntellektual neft quyuları və Qərar qəbul etmə/İOT-nin (əşyaların interneti) neft sənayesində tətbiqi

**Sertifikatlar:**

- Dük Universiteti/ IFP Məktəbi/ Total/ BP/ IWCF/ Aberdindəki Beynəlxalq qazma kursları.

“Təcrübə müddəti ərzində mən texniki xidmət prosesi ilə dərindən tanış oldum və real iş mühiti haqqında çoxlu praktiki məlumat əldə etdim. əldə etdiyim iş təcrübəsi həmçinin mənim təqdimat etmək və ünsiyyət qurmaq bacarıqlarımı gücləndirdi.

Mən Dük Universitetində təlim kursları keçmiş və neft sənayesində tanınan qiymətli sertifikatlar almışam (qazma, IWCF, Total); mən həm də layihə və mühəndis-texniki müsabiqələrinin birində qalib olmuşam.

Gələcəkdə özümü güclü qadın və neft sənayesində peşəkar mühəndis olaraq görürəm”.



www.socarpolymer.az

AZƏRBAYCANIN
NEFT-KIMYA SƏNAYESINDƏ
YENI ÜFÜQLƏR AÇIRIQ

SOCAR
POLYMER